

**Bəlkə də respublikanın uşaq musiqi məktəblərinin direktorları arasında onun qədər tanınmış, istedadlı və təcrübəli mütəxəssis yoxdur. Haqqında 100-dən artıq müxtəlif adda qəzet və jurnallarda rəngarəng yazılar gedib.**

# Şöhrəti ölkələr gəzən məktəb

**Bu sırada "Exo", "Dünya-Press", "Mədəni-maarif", "Sahil", "Kaspi", "Azərbaycan", "Respublika" və ölkəmizdə nəşr olunan digər onlarla qəzet və jurnal kimi Türkiyənin "Tərcüman", İraqın "Asso" və s. mətbuat orqanları da var.**

Rafiq müəllimin fəaliyyəti haqqında H.Hüseynlinin "Ağdamda ötən günlər", E.Həsənqızının "Duyğuların işığında", A.Abdullayevin "Ömürdən ötüşən illər", M.Çəmənlinin "Muğam dünyasının Xanı", Germanın "Ruhum Ağdamda qaldı", M.Axundovun "İllərdə qalan izlər", S.Əliyevin "Ağdamım-qibləgahım" kitablarında daha müfəssəl məlumat verilmişdir.

Xan Şuşinski adına Ağdam muğam məktəbinin direktoru, respublikanın əməkdar mədəniyyət işçisi Rafiq Rüstəmovun uğurlarının bir göstəricisi də mədəniyyətimizi səfər etdiyi ölkələrdə - İraq, Fransa, Türkiyə, Rusiya, Tacikistan, Bolqarıstan, Gürcüstan və Özbəkistanda ləyaqətlə təmsil etməsi ilə bağlıdır...

Məktəb 1985-ci ildən fəaliyyət göstərir. Rafiq müəllim onun ilk direktorudur. Qazanılan bütün uğurlar bu mədəniyyət fədaisinin adı ilə bağlıdır. Məktəbin nəzdində "Qarabağ bülbülləri" ansamblının yaradılması təşəbbüsü də məhz Rafiq Rüstəmovdan gəlmişdir. O bu təşəbbüsü irəli sürməklə qalmamış, həm də bu nəcib işin bütün ağırlıqlarını çiynində daşımış, gərgin axtarışlar aparmış, yuxusuz gecələr keçirmiş, kollektivin inkişafı və təminatı, dünya şöhrəti qazanması yolunda müstəsna xidmətlər göstərmişdir.

Bu ansambl respublikanın dövlət tədbirlərində fəal iştirakı ilə fərqlənmək, ölkənin möhtəşəm saraylarında rəngarəng konsertlər verməklə qalmamış, musiqimizi Daşkənddə, Moskvada, İstanbulda, Lil və Livon şəhərlərində layiqincə nümayiş etdirmişdir. Keçirilən festival və müsabiqələrdə daim öndə durmuşdur.



R.Rüstəmov deyir:

- Rəhbərlik etdiyim dövrdə məktəbimiz yüzlərlə muğam və xalq çalğı alətləri üzrə sənətçilər yetişdirmişdir. Onlardan Akademik Opera və Balet Teatrının solisti, Məcnun obrazının mahir ifaçısı Səbuhi İbayev, əməkdar artist Firuz Məmmədov, Humay Məmmədova, Fəqani Əliyev, Habil Hacıyev, Ehtiram Hüseynov, Rəvan Şahverdiyev, Ayaz Qasımov və başqalarının adlarını çəkmək yerinə düşərdi...



Söhbət zamanı Rafiq müəllimin muğamlarımıza nə qədər vurğun olduğuna bir daha əmin olduq. 4 övladı var. Adətən anadan olan uşağa illərdən bəri ürəyində gəzdirdiyin arzularına uyğun ad verirsən. Görün, qız və oğullarına hansı adları münasib bilib: Şahnaz, Rahab, Mahur, Şüştər. Hamısı da muğam adları.

Rafiq müəllim övladlarına bu adları verməklə kifayətlənməyib, həm də onların musiqi təhsili almaları qayğısına qalıb.

Muğam məktəbi Ağdamın süqutundan sonra əvvəlcə Bərdədə fəaliyyət göstərib. Hazırda Bakıda Q. Abbasov adına 284 saylı Biləcəri orta məktəbində məskunlaşıb.

Burada səs, tar, pianino, qarmon, nağara, kamança və kanon ixtisası üzrə 251 şagird oxuyur. Onların təlim-tərbiyəsi ilə 57 nəfər müəllim məşğul olur.

Məktəb uğurlu fəaliyyətinə görə dəfələrlə nazirliyin Fəxri Fərmanına və pul mükafatına layiq görülüb.

● E.Həsənqızı

